# AZƏRBAYCAN KİTABXANALARINDA FORMALAŞMIŞ SƏNƏD KÜTLƏSİ VƏ ONUN TƏRKİBİNDƏ ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ EKOLOGİYA ELMİ ÜZRƏ SƏNƏDLƏRİN TƏMSİL OLUNMASI XÜSUSİYYƏTLƏRİ

***İradə Zülfəli qızı ƏLİYEVA***
*Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının*
*Mərkəzi Elmi Kitabxanasının dissertantı*
*Bakı şəhəri, H. Cavid prospekti, 31.Tel. +99412438-60-17*
*E- poçt:* lali40@rambler.ru

***Поток документов в библиотеках Азербайджана и особенности представленных в них научных документов об охране окружающей среды и экологии***
***Резюме:*** *В этой статье, где отражаются определенные результаты проведённых исследований, показан общее состояние документальных потоков- фондов, анализирован документы по темеохрана окружающей среды и экология, показан состав этих фондов и изучен значение этих ресурсов в выполнении информационных запросов в таких организациях, как Министерство Экологии и Природных ресурсов, Государственный информационный архивный фонд, Азербайджанская Государственная Научно-медицинская библиотека, документальный фонд Общественно Экологического фонда, созданного в рамках Программы Орхус и Национальная Библиотека имени М.Ф.Ахундова.*

***Document stuff and the representative characters of scientific documents about protection of environment and ecology formed in Azerbaijan libraries.***
***Abstract:****In this article, which reflects some results of the survey, shows the general state of documentary flow – funds analyzed documents relating to environmental protection and ecology, shows the composition of these funds and understood the importance of these resources in the execution of requests for information from organizations such as the Ministry of Environment and Natural Resources, the State Information archives, Azerbaijan State Scientific Medical Library, documentary fund public environmental fund set up with in the frame work of Aarhus and the National Library named after M.F.Akhundov.*

***Açar sözlər:*** *sənədaxını, sənəd kütləsi, kitabxana fondu, ətraf mühitin mühafizəsi, ekologiya, informasiya tələbatı.*
***Ключевые слова:*** *поток документов, масса документов, библиотечный фонд, охрана окружающей среды, экология, потребность в информации*
***Keywords:*** *document flow, the mass of documents, the library fund, the environment, ecology, the need for information*

## Giriş

Biz bildiyimiz kimi, həm təbiətdə, həm də cəmiyyətdə hər hansı bir tədqiqat obyekti ya sükunət, ya da hərəkət halında öyrənilə bilər. Onlar biri-digəri ilə dialektik əlaqəyə malikdir, biri digərini meydana gətirir. Hadisə və obyektlərin hərəkət və sükunət halında öyrənilməsi sənəd-kommunikasiyalar sistemi üçün də

mühüm əhəmiyyət kəsb edir. Sənəd-kommunikasiya sistemində (SKS) baş verən prosesləri öyrənən elm sahələrində-sənədşünaslıqda, biblioqrafiyaşünaslıqda, kitabxanaşünaslıqda və onun sahəsi olan fondşünaslıqda - sükunət (statik) halında öyrənilən sənədlər çoxluğuna **sənəd kütləsi**, hərəkət (dinamik) vəziyyətdə öyrənilən sənədlər çoxluğuna isə **sənəd axını** kimi qəbul edilir.

Ümumilikdə SKS-də formalaşan sənəd kütləsi və müşahidə olunan sənəd axını xeyli mürəkkəb quruluşa malikdir və ən müxtəlif əlamətlərinə görə təhlil edilə, təsnifləşdirə bilər. Bu əlamətlərdən biri də axını, kütləni təşkil edən sənədlərin sahə əlaməti, həmin sənədlərin hansı elm və ya fəaliyyət sahəsinə aid olması, bu axının hansı coğrafi ərazidə, regionda, ölkədə yaranması və formalaşması məsələsidir. Bu baxımdan təbiət elmlərinə, humanitar elmlərə, texnikaya, tibb və səhiyyəyə, kənd təsərrüfatına və digər sahələrə aid olan sənəd kütləsi və axını fərqləndirilə bilər. Hal-hazırda bizmi üçün ərazi, region baxımdan Azərbaycan Respublikasında yaranan və ətraf mühitin qorunması, ekologiya elmlərinə aid olan sənəd kütləsi və axını daha artıq əhəmiyyət kəsb edir. Çünki indiyə qədər Azərbaycanda SKS-in tərkibində baş verən spesifik prosesləri öyrənən biblioqrafiyaşünaslıq, kitabxanaşünaslıq sahəsində aparılan tədqiqatlarda tibb, səhiyyə. təbiət elmləri, bədii ədəbiyyat, texnika, ictimai elmlər və sair sahədə araşdırmalar aparılsa da, ətraf mühitin qorunması, ekologiya elmlərinə aid olan sənəd kütləsi və axını məsələsi hələ də təhlil edilməmişdir. Bu məsələ həm də ona görə əhəmiyyətlidir ki, Azərbaycan Respublikasının Kitabxana işi haqqında Qanununda Qanununda da kitabxana fondu anlayışına xüsusi diqqət yetirilir. Əvvəla Qanunun preambula hissəsində kitabxana fonduna "ictimai istifadə məqsədilə kitabxananın vəzifələrinə uyğun şəkildə formalaşmış çap əsərləri və digər məlumat daşıyıcılarının məcmusu" kimi təhlil verilir. Qanunun "Kitabxana fondu" adlı III fəslinin 12-19-cu maddələrində sırf fondla əlaqədar məsələlər tənzimlənir.(1, 4-23).

Belə bir tədqiqat Azərbaycanda qeyd edilən sahə üzrə sənəd kütləsi və axınının müasir vəziyyətini müyyənləşdirməklə, həmin elm və fəaliyyət sahəsinin sənəd formasında informasiya ilə necə təmin olunması barədə təsəvvür yaratmağa imkan verir. Bunun üçün Azərbaycan Respublikasının aparıcı elmi kitabxanalarının fondundan ibarət sənəd kütləsi və həmin kitabxanaların fonduna daxil olan ədəbiyyatdan ibarət sənəd axının tərkibinə nəzər yetirərək müəyyən təhlillər aparmaq zəruridir.

**Sənəd kütləsi və axının bəzi xüsusiyyətləri**

Məlumdur ki, SKS-in tərkibində olmaqla sənəd kütləsi hər hansı əlamətinə görə-bizim halda isə sənədlərin mövzu-predmetaiddiyyatının ekologiya elminə aid olması əlamətinə görə-zamanı baxımından dəyişməyən sənədlər çoxluğudur. Bir sıra mənbələrdə sənəd kütləsini sənəd axınından fərqləndirən əsas fərq kimi sənəd kütləsini xarakterizə edən miqdar əlamətinin zamana görə dəyişilməz olduğu xüsusi vurğulanır. (10, 27-28). Sənəd kütləsini xarakterizə edən miqdar əlaməti nəşr vahidi, dərc vahidi və ya saxlama vahidi ilə ölçülür.

Onu xüsusi qeyd etmək lazımdır ki, sənəd kütləsnin zamana görə dəyişilməz



vəziyyətdə öyrənilməsi elmi tədqiqat üçün zəruri olan şərti mücərrədləşmədir. Real praktikada sənəd kütləsini təşkil edən sənədlərin miqdarının dəyişilməz olduğu bir nümunə tapmaq həddən artıq çətindir. İstənilən kitabxana fondunda, elmi-texniki informasiya orqanının sənəd fonunda miqdar göstəricisi daim dəyişir. Bu səbəbdən də, real sənəd fondlarının kütlə qismində tədqiqi zamanı onu xarakterizə edən miqdar göstəricisi müəyyən tarixdəki vəziyyətə görə götürülməlidir.

Sənəd kütləsi zaman məhdudiyyətindən başqa, sənədin növü, məzmunu, dili, kütlənin mövcud olduğu ərazi, nəşriyyat və s. kimi əlamətlərlə də xarakterizə oluna bilər. Ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə sənəd kütləsinin nümunəsi kimi müəyyən kitabxananın, elmi-texniki informasiya orqanının və s. sənəd fondu götürülə bilər. Daha sonra kütlə digər əlamətlərinə görə təhlil edilə bilər.

Məlumdur ki, cəmiyyətin sənəd-informasiya tələbatının ödənilməsi vəzifəsini yerinə yetirilməsi üzrə ictimai funksiyasını həyata keçirən kitabxanalar bu vəzifələrin həyata keçirilməsi üçün ölkənin sənəd kütləsinin məcmusu olan sənəd fondları yaradır, bu kütlənin-fondun tərkibini açan biblioqrafik vasitələr sistemini formalaşdırırlar.

**Müasir dövrdə Azərbaycan kitabxanalarında formalaşmış fondun (sənəd kütləsinin) tərkibi**

Ölkəmizdə dövlət səviyyəsində kitabxanaların sənəd kütləsinin-fondunun formalaşması vəzifəsinə yüksək əhəmiyyət verilir və bu səbəbdən onların inkişafına xüsusi diqqət göstərilir. Bu qayğının bariz nümunəsi son illərdə ölkəmizdə qəbul edilmiş bir sıra rəhbər sənədləri göstərmək mümkündür. Bunlardan ən başlıcası 2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş **"Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"**dır. Həmin vacib dövlət sənədində respublikamızın kitabxanalarının işinin müasir səviyyəsi qiymətləndirilir və onun perspektiv inkişafının, kitabxanalar tərəfindən cəmiyyətin sənəd-informasiya təminatının yaxşılaşdırılması yolunda görüləcək tədbirlər müəyyənləşdirilir.

Dövlət Proqramında qarğıya qoyulan vəzifələrdən çıxış edərək 2009-cu ilin sentyabr ayının 1-dən 10-a qədər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən Respublika ərazisindəki kitabxanalarda monitorinq keçirilmişdir. Həmin tədqiqatda inzibati aidiyyatından, harada yerləşməsindən, böyüklüyündən asılı olmayaraq Respublikada mövcud olan kitabxanaların vəziyyəti, fəaliyyəti hərtərəfli şəkildə öyrənilmişdir.

Həmin statistik monitorinqin keçirilməsindən sonra, onun nəticələrini özündə əks etdirən xüsusi statistik bülleten nəşr edilmişdir. (2, 88). Bu bülletendə kitabxanalarla əlaqədar bir çox digər məlumatlar kimi respublika kitabxanalaında formalaşmış sənəd fondu barədə də maraqlı məlumat verilir.

Bu statistik tədqiqatın nəticələri Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya sahəsinin kitabxana-biblioqrafik təminatı məsələsinin öyrənilməsi üçün

də xeyli əhəmiyyətlidir. Bu bülletendəki rəqəmləri tədqiq etməklə maraqlı ümumiləşdirmə aparmaq mümkündür.

Həmin monitorinqin nəticələrinə görə. respublikamızda hansı nazirliyə. baş idarəyə aid olmasından asılı olmayaraq **8507 kitabxana** mövcud olmuşdur. Bu kitabxanalarının fondunda cəmi **110.994.331 nüsxə** sənəd olmuşdur ki, bu da ictimai istifadə üçün yaradılmış sənəd kütləsinin əksər hissəsini təşkil edir. Həmin monitorinqdəki rəqəmlərə əsasın ölkə kitabxanalarının sənəd fondunun inzibati aidiyyatına görə bölgüsü aşağıdakı cədvəldə öz əksini tapmışdır. ("Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. - B, 2009.-88 s.S.7-8). Bu cədvəldən belə aydın olur ki, respublikamızda mövcud olan kitabxanalara içərisində ən zəngin sənəd kütləsi ümumtəhsil məktəblərində, daha sonra Mədəniyyət və Turizm Nazirliyinin tabesində olan kitabxana şəbəkələrində forlaşmışdır. Sonrakı yerlərdə elmi-tədqiqat müəssisələrinin kitabxanaları, ali məktəb kitabxanaları, orta ixtisas təhsil müəssisələrinin kitabxanaları və s. kitabxanalar tutur. Heç şübhəsiz ki, bütün bu kitabxanaların, xüsusən də elmi müəssisələrdəki və ali məktəb kitabxanalarının fondunda ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə də zəngin sənəd kütləsi formalaşmışdır. Lakin təəssüf ki, həmin statistik təhlildə respublikadakı kitabxanaların fondlarında sənəd kütləsinin elm və fəaliyyət sahələrinə( cümlədən ətraf mühitin qorunması və ekologiya) üzrə tərkibi məsələsi öz əksini tapmamışdır. Bu səbəbdən də, tədqiqatımız üçün əhəmiyyət kəsb edən suallara cavab tapmaq üçün respublikamızın müxtəlif tiplərə mənsub olan, istifadəçiləri və fondu baxımdan ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə xidmət üçün əhəmiyyətə malik bir sıra aparıcı kitabxanalarının fondunun sənəd kütləsi kimi tərkibinin təhlilinin aparması optimal həll kimi qəbul edilə bilər. Bunun üçün ilk növbədə ölkədə ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə ixtisalaşmış kitabxanaya və xüsusi informasiya mərkəzinə və Təbii Sərvətlər Nazirliyinin Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanasına, həmin nazirlıyin nəzdində fəaliyyət göstərən beynəlxalq **Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fonduna** aid faktlara, respubllikanın yeganə kütləvi universal elmi kitabxanası olan M.F. Axundov adına Milli Kitabxananın, respublikanın əsas elmi təşkilatı olan Milli Elmlər Akadamiyasına məxsus Mərkəzi Elmi Kitabxananın fondlarına dair məlumatlara müraciət etmək məqsədə uyğun olardı.

### 2. Azərbaycanın aparıcı kitabxanalarının fondunda ekologiyaya dair sənədlərin əks olunması

#### 2.1.Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası

Azərbaycanda xüsusi olaraq məzmun əlamətinə görə ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə ixtisaslaşdırılmış şəkildə yaradılmış sənəd kütləsinin yeganə nümunəsi kimi Ekologiya və Təbii Sərvətlər Nazirliyində yaradılmış Elmi kitabxananın fondunu göstərmək mümkündür. Qeyd edək ki, Azərbaycanda ətraf mühitə nəzarət üzrə dövlət orqanı hələ Azərbaycan SSR dövründə var idi. O zaman ölkədə bu işlə məşğul olan xüsusi Komitə mövcud idi ki, buda indiki nazirliyin xələflərindən biri olmuşdur. Bundan əlavə, 2002-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılan zaman onun tərkibinə daxil edilmiş qurumlardan biri Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi olmuşdur. (14).Uzun illər ərzində bu sonuncu Komitənin nəzdində elmi kitabxana fəaliyyət göstərmişdir. Bu səbəbdən hal-hazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyində fəaliyyət göstərən Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanası məhz yuxarıda qeyd etdiyimiz həmin kitabxananın varisi sayıla bilər.



Kitabxananın formalaşması tarixi barədə bir qədər detallı şəkildə aşağıdakıları söyləmək mümkündür. Azərbaycan Geologiya İdarəsi 1938 –ci ilin yanvar ayının 1-də Azərbaycan Geologiya Bürosunun bazasında yaranmışdır. 1941 –ci ildə Moskva şəhərindən Azərbaycanın yeraltı sərvətlərinin görkəmli tədqiqatçısı, geoloq İ.M.Qubkinin şəxsi kitabxanasından kitablar gətirmişdir və 1941-ci ildə Geologiya İdarəsinin Elmi-texniki kitabxanası yaradilmışdır. Sonralar Azərbaycan Geologiya idarəsinin adı dəyişilərək Azərbaycan Dövlət Geoloqiya və Mineral Ehtiyatlar Komitəsi adlandırılmışdır. 23 may 2001–ci il tarixində Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin və Azərbaycan Respublikası Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin bazasında Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı və burada Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsinin Kitabxanası öz fəaliyyətini davam etdirir. Çox müsbət haldır ki, Nazirliyinin internet saytının tərkibində Elmi-Texniki Kitabxananın ayrıca səhifəsi vardır ki, burada kitabxananın vəzifələri, fondun tərkibi haqqında məlumatlar da verilir.(15).

2012-ci ilinhesabatına əsasən, Kitabxananınfondunda 12765 adda 24074 nüsxə sənəd olmuşdur ki, bunlardan da 12251 adda 16729 nüsxə kitab, 46 adda, 4691 nüsxə dövri nəşrlər olmuşdur. Bundan başqa, Kitabxananın fondunda 269 adda 2002 nüsxə xəritə, 199 adda 652 nüsxə xüsusi nəşrlər olmuşdur.

Elmi-texniki Kitabxananın fondunda toplanmış kitablar sistemli qaydada 14 şöbə üzrə düzülmüşdür ki, bunlardan nazirliyin profilinə uyğun **Faydalı qazıntılar**, **Paleontologiya,** , **Geodeziya** və s. şöbələrlə yanaşı, 3-cü şöbə-**Ekologiya** da vardır. Bundan əlavə, fonda olan dissertasiya avtoreferatları da ayrıca şöbədə toplanır.

Kitabxanada ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə dövri və ardı davam edən sənəd kütləsi -nəşrlər fonduda formalaşmışdır. Bu fondun tərkibinə gəldikdə isə, burada həm Azərbaycanda, həm MDB ölkələrində, həmdə uzaq xaricdə nəşr edilən jurnallar toplanmışdır.

Təbii ki, bizim üçün fondun tərkibində bizi maraqlandıransahəyə dair nəşrlərin necə təmsil olunması maraq doğurur. Kitab fondunun yuxarıda qeyd edilən "Ekologiya" şöbəsində toplanmış kitabların tərkibinə diqqət yetirək.

**Fondda olan sənədlərin içərisində sırf ətraf təbii mühitin qorunması,**

**ekologiyaya şöbəsinə dair xeyli ədəbiyyat vardır. Bunlardan 50 adda kitab rus, 4 adda kitab isə Azərbaycan dilindədir. Beləliklə ad baxımdan fondun yalnız 0, 42 %-i bizi maraqlandıran mövzudadır.**

Bu kitabların mövzu təhlili isə göstərir ki, onlar ekologiyanın ən müxtəlif istiqamətini əhatə edir və müxtəlif ədəbiyyat tiplərinə (elmi, tədris, istehsalat, soraq) aiddir. Həmin kitablardan Azərbaycanda nəşr edilmiş kitablara nümunə kimi aşağıdakıları göstərmək olar:

1.Fövqəladəhallardaekologiyavətexnologiyaproblemləri. Beynəlxalq simpozium. 8 – 10 oktyabr 2002 – ci il. Məruzələrvəçıxışlar. – Bakı, 2002. – 602 s.

2. Yusifov E. F., Təhməzov V. N. Ətrafmühit, iqtisadiyyat, həyat. – Bakı: El-Əlincə, 336 s.. – Biblioqrafiya: S.333 – 335.

3. Yusifov E. F., Hacıyev V. Ə. Hirkanbiosferrezervatı. – Bakı:Бакы, El-Əlincə, 2004.-168 s. – Biblioqrafiya: S.163 – 167.

Tələbatçıların sənəd-informasiya təminatında Kitabxananın dövri nəşrlər fondu xeyli əhəmiyyətə malikdir. Bu dövri nəşrlərdən Azərbaycanda nəşr edilən "Hidrometeorologiya və ətraf mühitin monitorinqi", Rusiyada nəşr edilən "Экология и жизн", "Экология" jurnallarını göstərmək olar.(Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanasının 2012-ci il üçün hesabatı)

Elmi-texniki Kitabxananın fondundakı kitabların içərisində 9 adda elektron kitabda vardır. Bunların hamısı rus dilindədir. Onların tipinə gəldikdə isə əksər hissəsi elmi kitablardır. Kitabların mövzusuna gəldikdə isə onlardan hamısı Nazirliyin profilinə uyğun olub geologiyaya aiddir. Maraqlıdır ki, həmin kitabların mətni internet vasitəsi ilə, Elmi kitabxananın səifəsindənəlyetətdir. (15).

Kitabxananın tələbatçılari arasında ki, onlar fondun ekologiyaya aid olan hissəsinin daha zəngin olmasını, burada MDB və Avropa ölkələrinin ədəbiyyatının daha zəngin olmasını arzu edirlər.

**2.2. Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi və onun sənəd fondu**

Yuxarıda qeyd etdiyimiz kimi, Nazirlikdə sənəd-informasiya xidməti ilə məşğul olan və fəaliyyətinin istiqaməti ilə əslində kitabxana olan digər bir struktur vahididə vardır. Bu, 2002-ci ildə Nazirlikdə ətraf mühitin mühafizəsi məsələlərinə dair Avropa Şurasının Orxus proqramı çərçivəsində yaradılmış Orxus İctimai Ekoloji İnformasiya Mərkəzidir.. Mərkəzin ayrıca internet səhifəsi vardır. (15).

Mərkəz Ekoloji və Təbii Sərvətlər Nazirliyinin İnşaatçılar prospektindəki əsas binasında yerləşir və gün ərzində vətəndaşların ziyarəti üçün açıqdır. Mərkəzdə toplanmış fond Nairliyin kitabxanasından sonra respublikada ekoloji profilli (ixtisaslaşmış) ikinci sənəd kütləsi kini nəzərdən keçiriləbilər.

2012-ci ilin hesabatına əsasən İnformasiya Mərkəzinin ümumi fondu 667 nüsxə olmuşdur (13, 2). Fondun tərkibində Azərbaycan dilində -122 nüsxə, rus dilində -515 nüsxə, ingilis dilində -30, fransız dilində 2 nüsxə kitab olmuşdur. Bundan başqa, Mərkəzin fondunda respublikamızda və digər ölkələrdə dərc edilən müxtəlif dövri nəşrlər, buklet və borşuralar da toplanmışdır. Fondda həm də 70



nüsxə videokasset var.

Kitabxananın fondu barədə ən son statistik məlumatlar 2014-cü ilə aiddir. Həmin ildə isə fondun tərkibində olan kitabların ad üzrə miqdarı *489-ə*, nüsxə üzrə miqdarı 1000-ə çatmışdır. Bunlardan 300 nüsxəsi dərsliklər, 200 nüsxəsi Azərbaycan, 470 nüsxəsi rus, 330 nüsxəsi ingilis dilində olan kitablardır. Fondda həm də 70 nüsxə videokasset var.

**Fondun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə kitabların ad üzrə miqdarı 227, nüsxə üzrə miqdarı 314-dür ki, bu da faiz baxımdan müvafiq olaraq 46% və 31, 4% təşkil edir.**

Qeyd edildiyi kimi, Informasiya Mərkəzinin fondunda xeyli miqdarda müxtəlif kitablar toplanmışdır. Bunların içərisində Azərbaycan dilində olan kitablarla yanaşı böyük miqdarda xarici kitablar da vardır. Bu kitablar içərisində bir xeylisi ekologiyaya aiddir. İngilis dilində olan 30 adda kitabdan əksər hissəsi beynəlxalq təşkilatlar tərəfindən nəşr edilmiş kitablardır. Həmin kitablara misal olaraq aşağıdakıları göstərmək mümkündür:

1.From theory to practice in Environmental epidemiology: developing, conducting and disseminating health research.- 226 p.

2.Manual on oil pollution. Contingency planning. 1995 edition. International Maritime Organization.- 66 p.

Kitabxananın fondunda AMEA nın institutlarının bu sahə üzrə Nəsirləri, Ekologiya və Təbii Nazirlər Nazirliyinin hazırlayıb nəşr etdirdiyi çap məhsulatı, eləcə də respublikanın qeyri-hökumət təşkilatlarının nəşr etdirdikləri elmi və elmi-kütləvi Nəsirlər, informasiya xarakterli Nəsirlər də vardır ki, bunlardan Azərbaycanda çıxmış nəşrlərə aşağıdakıları misal göstərmək olar:

1.AzərbaycanRespublikası. Ekoloji Atlas.–Bakı: Bakıkartoqrafiyafabriki, 2009.- 156 s.

2. BiolojiMüxtəliflik. XəzərinAzərbaycanhissəsininsudaüzənquşları.- Bakı: Nurlar, 2004.- 136 s.

Fondda toplanmış qeyri-hökumət təşkilatlarınınnəşrlərinə aşağıdakıları nümunə gətirmək olar:

1.Müasir ekologiya: Azərbaycan -Türkiyə nəşri /Beynəlxalq Ekoenerji Akademiyası.-B.:"Okaofset"Poleqrafiya şirkəti, 2006.-412 s.

2. "Davamlı Şəhərlər" keçid iqtisadiyyatlı ölkələrin şəhərləri üçün yerli çağırış- 21 üzrə təlimat(Ermənisatan, Azərbaycan, Gürcüstan timsalında).- İrəvan-Bakı-Tibilsi: "R.N. Novruzov-94" nəşriyyatı, 2003. -170 s.

Göründüyü kimi, Mərkəzdə toplanmış sənəd kütləsi miqdar baxımdan böyük olmamasına baxmayaraq öz dəyərinə, ixtisaslaşmış ekoloji mövzu istiqamətinə görə xeyli əhəmiyyət kəsb edir.

Son olaraq qeyd etmək zəruridir ki, Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzi təşkil ediləndən bəri sırf ətraf mühit, ekologiya istiqamətli sənəd-informasiya təmanitı məqsədi ilə yaradılmış yeganə informasiya müəssisəsidir və onun öz vəzifələrini yerinə yetirməsi üçün orada konpakt, lakin Mərkəzin fəaliyyəti üçün çox əhəmiyyətli sənəd fondu

formalaşmışdır.

**2.3. M.F. Axundovadına Milli Kitabxana**

Respublikanın tərkibində ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə əhəmiyyətli miqdarda sənədlər olan digər kitabxanaları əsasən universal və ya çoxsahəli elmi kitabxanalardır. Azərbaycanda belə kitabxanalari çərisində müstəsna mövqe M.F. Axundov adına Milli Kitabxanaya məxsusdur. Bu kitabxana1923-cü ildə təsis edilmişdir. Keçən doxsan ilə yaxın müddət ərzində Kitabxana şərəfli bir inkişaf yolu keçmişdir. Kitabxanada bütün respublikada kitabxana işinin inkişafı sahəsində çox böyük işlər görülmüşdür. Ölkəmiz tam dövlət müstəqilliyi qazandıqdan sonra Kitabxananın əhəmiyyəti daha da artmışdır. Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə M.F.Axundov adına Dövlət kitabxanasına "Milli Kitabxana" statusu verilmişdir(3, 114.).

M.F. Axundovadına Milli Kitabxana sovet dövründə istisnasız olaraq respublikada çap edilən bütün nəşrlərin məcburi nüsxəsini alırdı. Respublikamız tam dövlət müstəqilliyi qazandıqdan sonra bir sıra naşirlərin məcburi nüsxə haqqında qanuna etinasız yanaşması üzündən ölkəmizdə bu dövrdə nəşr edilmiş nəşrlərin fondda təmsil olunma faizi xeyli azalmışdır. Eyni zamanda. Kitabxana həm sovet dövründə, həm də indi keçmiş İttifaqda, indi isə xarici ölkələrdə nəşr edilən ən dəyərli kitabları alaraq fondu zənginləşdirir. Kitabxana respublikda nəşr olunan bütün dövri nəşrləri istisnasız olaraq və xaricdə çıxan dövri nəşrləri seçmə şəkildə komplektləşdirir.

Öz Əsasnaməsi və digər normativ sənədlər əsasında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün Kitabxanada hal-hazırda 26 şöbədən ibarət optimal bir struktur formlaşdırılmışdır. Bu şöbələrin hər biri bu və ya digər dərəcədə ətraf mühitin mühafizəsi və ekologiya üzrə ilkin sənəd və biblioqrafik təminata öz töhfəsini verir.

2015-ci il may ayına olan vəziyyətə görə kitabxananın fondunun tərkibini aşağıdakı rəqəmlər və cədvəl əks etdirir:

*Cədvəl 1.2014-cüilinmartayınaolanməlumatagörə M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasının fondunun müxtəlif əlamətlərə görə tərkibi*

| | **Sənədfonducəmi** | **4.568.838 nüsxə** |
|---|---|---|
| 1. | **Fondunsənədnövünəgörətərkibi** | **Nüsxə** |
| 1.1. | Kitablar | 2.379.495 |
| 1.2. | Digərnövsənədlər | 2.189.343 |
| 1.3. | Jurnallar | 1.170 344 |
| 1.4. | Qəzetlər | 579 670 |
| 1.4.1 | Digər ardı davam edən nəşrlər | 132 421 |
| 1.5. | **Sənədin texniki formasına görə** | |
| | Elektron sənədlər(CD, VCD, DVD və s.) | 1.410 |
| 2. | **Fondunsənədlərindilinəgörətərkibi** | **Nüsxə** |



| | | |
|---|---|---|
| 2.1. | Azərbaycan dilində | 622.723 |
| 2.2. | Rus dilində | 3.536.831 |
| 2.3. | Keçmiş SSRİ xalqları dillərində | 63.969 |
| 2.4. | Digər dillərdə | 359.079 |

**2014-cü ildə** Milli ədəbiyyatın komplektləşdirilməsi bölməsinə 12 836 nüsxə ədəbiyyat daxil olmuşdur. Bunlardan 10 428 nüsxə kitab, 2408 nüsxə digər növ sənədlər olmuşdur.

Ümumilikdə 2014-cü ildə Kitabxananın fondunda 4.568. 838 nüsxə ədəbiyyat olmuşdur.

Fondun tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə ədəbiyyatın miqdarı bizim mövzumuz üçün xüsusi əhəmiyyət kəsb edir. Belə ki, əgər 1990-ci ildə Kitabxananın fondunda Azərbaycan dilində 49 adda ədəbiyyat olmuşdusa, 2010 ci ildə bu miqdar 260 ada çatmışdır. 2010-cu ildə Kitabxananın fondunda qeyd etdiyimiz mövzuda rus dilində 1300 adda, ***2015-ci ilin mart ayında isə bu mövzu üzrə müvafiq olaraq Rus dilində 1420 adda, Azərbaycan dilində 430 adda, cəmi 1650 adda kitab olmuşdur.*** (12).

(M.F, Axundov adına Azərbaycan Milli Kitabxanasının 2009, 2010 illər üçün hesabatı)..

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar olaraq şöbə Prezidentin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə nəşr olunan kitabların əksəriyyətinin elektron versiyasını hazırlayıb oxucuların istifadəsinə təqdim etmişdir.(9, 15-31).

Ətraf təbii mühitin mühafizəsi və ekologiya elmi üzrə sənəd fondunun formalaşdırılmasına gəldikdə isə, M.F.Axundov adina Azərbaycan Milli Kitabxanada bu məsələyə böyük diqqət verilir, respublikamızda bu istiqamətdə çap edilmiş bütün kitabxanaların tam şəkildə komplektləşdirilməsinəçalışılır, ölkədə bu istiqamətdə nəşr olunan dövri nəşrlər abunə edilir, MDB məkanında rus dilində nəşr edilmiş kitablar sifariş verilir. Bu səylərin nəticəsində Kitabxanada həmin istiqamətdə xeyli zəngin fond formalaşmışdır.

M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə kitab fondun tərkibinə, onun dillər üzrə bölgüsü məsələsinə gəldikdə isə, bu barədə 2015-ci ilin mart ayına dair rəqəmlələr aşağıdakı cədvəldə öz əksini tapmışdır.

*Cədvəl 3.2010-cu ildə M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiya üzrə monoqrafik əsərlərin (kitab fondu və dissertasiyalar) tərkibi (ad üzrə)*

| **N** | **Dillər** | **Dillərüzrəkitablarınmiqdarı (ada görə)** |
|---|---|---|
| 1. | Azərbycandilində | **250** |

| | | |
|---|---|---|
| 2. | **Rus dilində** | **1300** |
| 3. | **İngilisdilində** | **16** |
| 4. | **Dissertasiya** | **94** |
| | *Cəmi* | *1660 adda* |

Həmin kitabların ətraf təbii mühitin mühfizəsi və ekologiyanın hansı sahəsinə aid olması məsələsi də maraq doğurur. Həmin kitabların əksər hissəsi **ümumi ekologiya, mühəndis ekeologiyası** sahəsinə aiddir.

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsidə maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 2000-ci ildən sonra nəşr edilən kitablardır. Rus dilində olan kitabların isə əksər hissəsi 1990-2000-ci illərdə nəşr edilmişdir.

Bu kitanların məqsəd təyinatına gəldikdə isə onların əksər hissəsi **elmi ədəbiyyatdan**, bundan sonra **tədris ədəbiyyatından-(dərsliklərdən və dərs vəsaitlərindən)** ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq kitabları durur.

Milli Kitabxananın fondunda ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd-informasiya təminatında monoqrafik sənədlərlə yanaşı dövri və ardı davam edən nəşrlərin böyük əhəmiyyət vardır. Milli Kitabxanada bu tələbatın ödənilməsi dövri nəşrlər fondu vasitəsi ilə həyata keçirilir. Bu fondun tərkibi Dövri nəşrlər kartotekasında öz əksini tapır. Həmin kartotekanın təhlili göstərir ki, Kitabxananın bu fondunda səhifələrində həmçinin ekologiya mövzulu materiallar dərc edilən çox sayda dövri nəşrlər mövcuddur. Bunlar əsasən AMEA, ölkənin ali məktəbləri, Respublika Ekologiya və Təbii sərvətlər Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi tərəfindən nəşr edilən dövri nəşrlərdir

M.F.Axundov adina Azərbaycan Milli Kitabxanasında ətraf təbii mühitin mühafizəsi və ekologiyaüzrədövrivəardıdavamedənnəşrlərfondudaformalaşmışdır. Bufonduntərkibinəgəldikdəisəbubarədərəqəmlələraşağıdakıcədvəldəözəksinitapmışdır.

*Cədvəl 4. M.F.Axundov adina Milli Kitabxanada olan dövrivəardıdavamedənnəşrlərfondununadvədillərüzrətərkibi*

| | **Dillər** | **Dövrivəardıdavamedənnəşrlərina düzrəmiqdarı** | **Onlardanekologiya üzrə** |
|---|---|---|---|
| 1. | Azərbycandi lində | 385 | 2 |
| 2. | Rus dilində | 160 | 6 |
| | **Cəmi** | **545** | **8** |

Kitabxananın fondunda ekoloji mövzuya aid olaraq Məqalələri-nin Sitemli Kartotekasınada- Universal kartotekadaəks olunan **800 adda məqalə aşkara çıxarılmışdır. Bunlardan 650 məqalə rus, 150 isə Azərbaycan dilindədir.**

**Xariciədəbiyyatfondu**



Azərbaycanın beynəlxalq əlaqələrə daha yaxından inteqrasiya etməsi ekologiya üzrə beynəlxalq əlaqələrin də intensivləşməsinə gətirib çıxarır. Bu özünü ekologiya sahəsində də büruzə verir. Məhz buna görə Kitabxananın Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin fəaliyyətinə də nəzər salmaq gərəkdir.

2015-ci ilin yanvarın 1-nə olan məlumata görə Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin fondu 301141 nüsxədən ibarətdir. Bura 115710 nüsxə kitab, 184968 nüsxə jurnal və 463 ədəd CD daxildir. Xarici ədəbiyyat və beynəlxalq kitab mübadiləsi şöbəsinin 5 fondu var ki. Bunlara ingilis, alman, şərq, başqa dillər üzrə fondlar və jurnal fondu daxildir. Şöbədə ekologiyaya aid

-ingilis dilində-9;

-alman dilində 17;

Farnsız dilində -1,

bütünlükdə cəmi 27 kitab var. Onlara misal olaraq aşağıdakıları göstərmək olar:

1.Robiller F. Refugien der Natur: VomPolarkreisbiszum Balkan.-Berlin: Dt. Landwirtschaftsverl., 1987.-219 s.-(alman dilində).

2.Ellen Roy. Modern Crises And Traditional Strategies: Local Ecological Knowledge in Island Southeast Asia.-NewYork: Berbabn Books, 2007.-272 p.-(ingilisdilində).

3.Peters C. H. The ecology and management of non-timber forest resources.-Washington: WB, 1996.-157 p. .-(ingilisdilində).

Milli Kitabxanada bizi maraqlandıran sahə üzrə tələbatçılara sənədlə xidmət əsasən, Ümumi oxu zalında, Dövri mətbuat zalında, Biologiya və təbiət elimləri zalında həyata keçirilir. Sonuncu zalın öz ayrıca kataloquna Soraq və biblioqrafik nəşrlər fonduna malikdir. Buradakı fondda ekoloji ədəbiyyat daha yüksək konsentrasiyaya malikdir. Əgər tələbatçıya ekeoloji istiqamətli dissertasiyalara dair məlumat lazımdırsa, onu Elektron dissertasiya fondunun təşkili və ondan istifadə şöbəsinə istiqmətləndirilirlər.

Göründüyü kimi, Milli Kitabxananın Dövri və ardı davam edən nəşrlər fondunda sırf olaraq bizim tədqiqi etdiyimiz mövzuya yönəlmiş, eləcə də paralel olaraq səhifələrində bu mövzuda materiallar dərc edən xeyli sayda dövri və ardı davam edən nəşr vardır ki, bu da həmin sahəni ilə maraqlanan tələbatçılar üçün böyük əhəmiyyət kəsb edir.

**2.4. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası**

Bir qədərəvvəl qeyd etdiyimi kimi, respublikamızın ən böyük elmi qurumu olan Azərbaycan Milli Elmlər Akademiyası həm də ekologiyaüzrətədqiqatlarınaparıldığıənböyükelmimüəssisədir. Akademiyanıntərkibinədaxilolan 37 elmi-tədqiqatqurumundan 13 elmimüəssisəekologiyaistiqamətindəelmitədqiqatlaraparır. BusəbəbdəndəMilli Elmlər Akademiyasında alim və tədqiqatçılara kitabxana-biblioqrafik xidmətin

təşkilinə böyük əhəmiyyət verilir. Həmin xidmətin təşkili üçün Akademiya sistemində 26 kitabxanadan ibarət bütöv bir şəbəkə yaradılmışdır ki, ona Mərkəzi Elmi Kitabxana başçılıq edir. Bu müəssisələrin əksərində xüsusi elmi kitabxana fəaliyyət göstərir (16). Mərkəzi Elmi KitabxanaAkademiya sistemindəki 26 kitabxananın fəaliyyətini istiqamətləndirən metodiki mərkəzdir. ( 5, 1-24)

Bu kitabxana başda olmaqla Akademiya kitabxanaları sistemində çox zəngin kitab kütləsi formalaşmışdır. Hazırda ölkəmizdə təbiətşünaslıq, sosial-iqtisadi, siyasi, humanitar və texniki elm sahələri üzrə ən iri elmi kitabxana sayılan AMEA-nın Mərkəzi Elmi Kitabxanası dünya xalqlarının 50 dildə nəşr edilmiş 3 milyon nüsxədən artıq elmi ədəbiyyatı əhatə edən informasiya fonduna malik olub, 30 mindən artıq oxucuya xidmət göstərir. (Əliyeva-Kəngərli A.İ. Azərbaycan milli elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası – 80 // Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının elmi əsərləri.- 2003. – S.5. (S. 1-24. ).(5, 5)

Mərkəzi Elmi Kitabxanasında formalaşmış sənəd fondunun tərkibində isə ekologiyavəətrafmühitinmühafizəsinədairxeylizənginsənədkütləsitoplanmışdır. BusəbəbdəndəAzərbaycandaelmi-tədqiqatfəaliyyətinədairvəekologiya, ətrafmühitinmühafizəsimövzusubdasənədkütləsindənsöhbətgetdikdəilknövbədə MEA Mərkəzi Elmi Kitabxanasının və ayrı-ayrı akademik müəssisələrin kitabxanalarında formalaşmış sənəd fondu nəzərdə tutulmalıdır. (7, 32-40) (6, 394).

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının sənəd fondunun tərkibi, fəaliyyətinin əsas istiqamətləri barədə təsəvvür əldə etmək üçün 2011-ci ilin illik hesabatındakı faktlara müraciət edək.

*Cədvəl*

| | | Nüsxə |
|---|---|---|
| 1. | Fondun ümumi miqdarı Onun tərkibində | 2.227.213 |
| 1. | Kitablar | 1.227.142 |
| 2. | Xüsusi növ ədəbiyyat | 181.177 |
| 3. | Dövri mətbuat | |
| 3.1. | Jurnallar | 809.704 |
| 3.2. | Qəzetlər | 3.441 ad |
| 4. | Mikroformalar, mikrofilimlər | 5.749 |
| . | **Fondun elm sahələrinə görə tərkibi** | |
| 1. | Ictimai elmlər | 47.164 |
| 2. | Təbiət elmiləri Onun tərkibində | 81.3273 |
| 3. | Fizika, riyaziyyat elmiləri Onun tərkibində | 24.6262 |
| 4. | Kimya elmiləri | 25.0553 |
| 5. | Geologiya -coğrafiya elmiləri | 191.757 |
| 6. | Biologiya elmiləri | 124.701 |
| 7. | Texniki elmilər | 362.156 |
| 8. | Kənd təsərrüfatı | 134.298 |
| 9. | Tibb elmiləri | 108.197 |
| 10. | Bədii ədəbiyyat | 326.810 |
| 11. | Incəsənət | 142.295 |
| 12. | Kitabxana- biblioqrafiya | 91.053 |
| 13. | Ensiklopediya, məlumat kitabları | 5.269 |
| 14. | Filologiya | 196.699 |
| | **Ekologiya üzrə kitablar cəmi** | **2.500** |
| 1. | Azərbaycan dilində | 500 |
| 2. | Rus dilində | 2.000 |



Göründüyü kimi, Kitabxananın fondu xeyli zəngin tərkibə malikdir. Burda ekologiayaya dair kitabların da xeyli təmsil olunması-2.500 adda-***4.300 nüsxədə*** həmin fondun bu sahənin mütəxəssislərinə xidmət üçün əhəmiyyət kəsb etməsinə imkan verir. Bu isə nüsxə baxımdan ümumi fondun 0, 11%-ni, kitab fondunun isə 0, 2%-ni təşkil edir.

Lakin məlumdur ki, tələbatçıların sənəd-informasiya ehtiyaclarının ödənilməsində kitablarla yanaşı dövri nəşrlərin də böyük əhəmiyyəti vardır. Kitabxananın fondunda ətraf mühit və ekologiya ilə bağlı Azərbaycanda nəşr edilən bir sıra dövrü və ardı davam edən nəşrlər mövcuddur ki, onlardan xüsusilə "Ekologiya və su təsərrüfatı .elmi-texniki və istehsalat jurnalı / Azərbaycan memarliq və İnşaat Universitetinin "Su təsərüfatı və mühəndis Kommmunikasiya sistemləri" fakültəsinin nəşri", ""Azərbaycan Milli Elimlər Akademiyasının xəbərləri: Biologiya elimləri seriyası", "Mərkəzi Nəbatat bağının əsərləri/ AMEA" və "Ekoenergetika: elmi-teniki jurnal /AMEA ; Beynəlxalq "Ekoenergetika" Akademiyası" ekoloji istiqamətli materiallara daha çox yer verir.

Haqqında bəhs edilən kitabların nəşr ili məsələsidə maraq doğuran məsələdir. Təhlil göstərir ki, Azərbaycan dilində olan kitabların əksər hissəsi 2000-2014-cü illərində nəşr edilən kitablardır. Rus dilində olan kitabların əksər hissəsi 1995-2005-ci illərdə nəşr edilmişdir.

Bu kitabların məqsəd təyinatına gəldikdə isə onların əksər hissəsi tədris ədəbiyyatından-dərsliklərdən və dərs vəsaitlərindən ibarətdir. Sonrakı mövqedə elmi, daha sonra isə soraq kitabları durur.

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında ətraf təbii mühitin mühfizəsi və ekologiya üzrə dövri və ardı davam edən nəşrlər fondu da formalaşmlşdlr.

Təqdim edilən faktlar təsdiq edir ki, Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında ətraf təbii mühitin mühfizəsi və ekologiya üzrə zəngin və müxtəlif çeşidli sənəd kütləsi formalaşdırılmışdır. Həmin sənəd kütləsi ilk növbədə elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Beləliklə, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxabasının və bütünlükdə elmi kitabxanalar şəbəkəsinin fondunun tərkibinin təhlili sübut edir ki, bu fondun tərkibimdə ekologiya üzrə həm kitablar, həm də

dövri nəşrlər üzrə əhəmiyyətli miqdara malik sənəd kütləsi formalaşmışdır. Bu kütlə daim inkişaf edir və zənginləşirvə bununla Elmlər Akademiyası sistemində çalışan tələbatçıların sənəd-informasiya tələbatlarının daha mükəmməl şəkildə ödənilməsinə yardım edir.

**NƏTİCƏLƏR**

Digər ictimai fəaliyyət sahələri kimi, ətraf mühitin mühadizəsi sahəsi və ekologiya elminin öz vəzifələrini uğurla yerməsinin başlıca şərti sənəd vasitəsilə informasiya təminatıdır. Bu təminat sənəd-kommunikasiyalar sistemi, onun ayrı-ayrı təsisatları və başlıca olraq kitabxanalar vasitəsi ilə həyata keçirilir. Bu sistemdə meydana gələn sənədlər dinamik şəkildə hərəkərtedərərk sənəd axını yaradırlar ki, sonradan bu axının nəticəsində sənəd kütləsi formalaşır. Həmin proses bütün dünyada olduğu kimi, Azərbaycanda da baş verir. Azərbaycan kitabxanalarında formalaşan sənəd kütləsi və müşahidə edilən sənəd axını kitabxanaların cəmiyyətin sənəd-informasiya təminatını dolğun şəkildə ödəməyə imkan yaradır. Aparılan təhlil nəticəsində respublika miqyasında aparılmış tədiqatın nəticələri və kitabxana hesabatlarında toplanmış məlumatlar istifadə edilməklə Azərbaycanın aparıcı mövqeyə malik 5 kitabxanasının fondunda formalaşmış sənəd kütləsi həm ümumilikdə bütün sahələrə dair sənədlər üzrə, həm də bəhs etdiyimiz sahə üzrə təhlil edilmişdir. Aşkara çıxarılmışdır ki, bu kitabxanalarda toplanmış sənəd kütləsi əhəmiyyətli həcmə malikdir və onun tərkibində olan sənədlər sənədlərin növü, dili, mövzu və oxucu təyinatı baxımından xeyli rəngarəngdir. Sənədlərin aid olduğu elm və fəaliyyət sahələri içərisində texniki elmlər, geologiya, biologiya və kənd təsərrüfatı sahələrinə dair sənədlər üstünlük təşkil edir.

Fəliyyətini tədqiq etdiyimiz fondlar içərisində ümumi fondun tərkibində ətraf mühitijn mühafizəsi və ekologiyaya dair ədəbiyyatın xüsusi çəkinin ən yüksək olduğu fond Orxus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin fondudur. Burada fondun ad hesabına tərkibinin 46%-ni qeyd etdiyimiz sahə üzrə kitablar təşkil edir. Bu xüsusiyyətinə görə növbəti yerdə digər ixtisaslaşmış kitabxananın- Ekologiya və Təbii Sərvətlər Nazirliyi Dövlət İnformasiya-Arxiv Fondunun Elmi-Texniki Kitabxanasının fondunda bəhs etdiyimiz sahə üzrə kitabların xüsusi çəkisi əvvəlki fonddan 10 dəfə az olmaqla 0, 42% təşkil edir. Respublikanın iri kitabxanalarında ekologiya elmi və ətraf mühütin qorunması üzrə fəlaiyyət tarixən daha gec formalaşdığından fondun tərkibində bu sahəyə dair sənədlərin xüsusi çəkisi daha az olmaqla cəmi 0, 1-0, 2% ətrafındadır.

Tədqiq etdiyimiz fondların tərkibində öyrəndiyimiz sahəyə dair kitabların içərisində dil baxımdan ilk yeri rus dilində, ikinci yeri isə isə Azərbaycan dilində kitablar təşkil edir. Fondların tərkibində, xüsusən də Orxus layihəsi üzrə yaradılmış fondda, xarici dillərdə(əsasən Avropa dillərində) olan kitablar və dövri nəşrlər də vardır. AMEA mərkəzi Elmi Kitabxanasının və M, F. Axundov adına Milli Kitabxananın dövri nəşrlər fondu daha zəngindir və bura respublikada çıxan dövri nəşrlərlə yanaşı, xarici dövri nəşrlər də daxil olur. Tədqiq etdiyimiz



kitabxanalarda sənəd fondu və axınının tərkibini açan biblioqrafik vasitələr sistemi, ilk növbədə kataloq-kartoteka sistemi də yaradılmışdır ki, bu həmin fondun tərkibini açmağa, onu təhlil və təbliğ etməyə imkan verir.

Azərbaycanda ətraf mühütin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin formalaşdırılması və onun istifadəsinin təşkili sahəsində xeyli iş görülsə də, indiki səviyyəni heç cür qənaətbəxshesab etmək olmaz. Tə

Dqiqat zamanı apardığımız müşahidələr, keçirdiyimiz söhbətlər bəhs etdiyiomiz sahə üzrə mütəxəssislərin sənəd-informasiya tələbatının ödənilməsində xeyli problemlər olmasını aşkara çıxardı. Bu zaman ən çox şikayət mütəxəssislərin bəhs etdiyimiz sahənin ayrı-ayrı mövzu və problemləri üzrə ədəbiyyatın az olması, ya heç olmaması, ya da Azərbaycan dilində olmamamsı üzündən öz informasiya tələbatlarını tam ödəyə bilməməsidir. Bundan başqa, haqqında bəhs etdiyimiz kitabxanalarda elektron kataloqların yaradılması sahəsinədə işlərin zamanın tələblərindən xeyli geri qalması tələbatçıların lazımi biblioqrafik informasiyanı on-layn şəkildə bütün gün ərzində fasiləsiz olaraq əldə edilməsinə imkan vermir.

Bəhs etdiyimiz sahə üzrə problamlərin yığılıb qalmasının səbəblərindən biri də respublikamızda indiyə qədər heç kimin ətraf mühütin mühafizəsi və ekologiya üzrə sənəd kütləsi və fondun formalaşması və inkişafı məsələsini dərindən elmi təhlil edən elmi əsərlərin- məqalələrin, kitabların yazılmaması və monoqrafik biblioqrafiyadırdır. Başqa sözlə, təqdim edilən tədqiqat bu problem üzrə ilk təcrübədir və ümid etmək olar ki. bundan sonra Azərbaycan kitabxanaşünas və biblioqrafiyaşünasları respublikada ətraf mühütin mühafizəsi və ekologiya üzrə sənəd kütləsi və fondunun formalaşması məsələsinə daha artıq diqqət yetirəcəklər.

**İstifadə edilmiş ədəbiyyat**

***Rəsmi sənədlər***

1.Azərbaycan Respublikasının Kitabxana işi haqqında Qanununda // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal.-1999.-N1.-S. 4-23

2. "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə statistik bülleten /Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. - B, 2009.- 88 s.

3.Azərbaycan Respublikası Nazirlər Kabinetinin M.F.Axundov adına Dövlət kitabxanasına "Milli Kitabxana" statusu verilməsi ilə əlaqədar 15 aprel 2004-cü il tarixli qərarı // Azərbaycan Respublikasının qanunvericilik toplusu.- B., 2004.- Maddə 298-299.-S.114.

***Elmi əsərlər***

4.Əliyeva-Kəngərli A.İ. Azərbaycan milli elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası – 80 // Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının elmi əsərləri.- 2003. – S. 1-24.

5.Əliyeva-Kəngərli A.İ. Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası – 80 // Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının elmi əsərləri.- 2003. –S. 1-24.

6.Əliyeva-Kəngərli A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və

kitabxanalar. – Bakı: Elm, 2007. – 394 s.

7.Əliyeva-Kəngərli A.İ. Müstəqillik dövründə Mərkəzi Elmi Kitabxananin fondlarinin formalaşmasi:İnkişafi və təkmilləşdirilməsi tendensiyalari (tədqiqat materialları əsasında) //Kitabxanağünasliq və informasiya.- 2010.- № 1.-S 32-40.

8.Xələfov A, A. Kitabxana fondu ümumbəşəri sərvətin məcmusudur// Kitabxanaşünaslıq və informasiya .- 2010.- N 2.- S.7-16.

9.Tahirov K.M. M.F.Axundov adina Azərbaycan Milli Kitabxanası müstəqillik illərində// Kitabxanaşünaslıq və informasiya : elmi-nəzəri, metodik və təcrübi jurnal//2010.- N 1.- S.15-31.

***Rus dilində***

10.Библиография естественнонаучгойлитературы :учеюник/ подред.М.П. Гастфера и Г.К. Быстровой.- М.: Книга, 1983.-С.27-28. 287 с.

***Kitabxana hesabatları***

11..AMEA Mərkəzi Elmi Kitabxanasının 2009-2014-cü illər üçün hesabatları.

12.M.F, Axundov adına Azərbaycan Milli Kitabxanasının 2007, 2008, 2009, 2010, 2011, 2014-cü illər üçün hesabatları.

13.Orxus İctimaiEkolojiİnformasiyaMərkəzinin 2012-ci ilüçünhesabatı.

***İnternet resursları***

14. http://www.eco.gov.az/qanunlar/qerarlar/nk/22.do

15. http://www.eco.gov.az/orxus.php.

16. http://www. science.az.